Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# *Uşaq kitabxanalarında fondların öyrənilməsi, mühafizəsi, istifadə edilməsi*

**Bakı-2020**

**Tərtibçi:** **Ruhiyyə Məmmədli**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

Uşaq kitabxanalarında fondların öyrənilməsi, mühafizəsi, istifadə edilməsinin düzgün şəkildə yerinə yetirilməsi məqsədilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış elmi metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. M.Ruhiyyə; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2020. – 37 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

## Giriş

Ölkəmiz qədim dövrlərdən başlayaraq milli - mənəvi sərvətləri, xüsusilə kitab mədəniyyəti ilə seçilmiş və zəngin kitabxanaları ilə tanınmışdır. Kitabxanalarda olan yazılı mənbələr bəşəriyyətin elm və yaradıcılıq nailiyyətləri ilə yanaşı, tarix və cəmiyyətin qarşılıqlı əlaqələrini də əks etdirir. Kitabxana bitib-tükənməyən, hesaba gəlməyən informasiya sərvətini özündə cəmləşdirməklə yanaşı, insanların məlumat bazasının zənginləşdirilməsinə və elmi dünyagörüşünün kamilləşməsinə, cəmiyyətin maariflənməsinə xidmət göstərir. Fikirləşdiklərimiz, yaratdıqlarımız və kəşf etdiklərimizdən ibarət olan bu materiallar keçmişin gələcəyə hədiyyəsi kimi çatdırılması üçün kitabxana fondlarında və arxivlərdə mühafizə olunur. Kövrək davamsız və bəzən çox zərif olan bu materialların mühafizəsi üçün məsuliyyət biz kitabxanaçıların üzərinə düşür. Çünki kitabxana fondu 100000 nüsxələrlə sənədləri əhatə edən zəngin bilik xəzinəsi olmaqla minlərlə oxucunun əsl mütaliə mənbəyinə verilmiş sərvətdir. Bu gün informasiya əsri adlandırılan XXI əsr əsas məlumat mənbəyi olan kitabxanaların qarşısında keyfiyyətcə yeni vəzifələr qoyur. Müasir kitabxanaçılar tələbatı günbəgün artan və genişlənən oxucuların təzə məlumatlar almaları məqsədilə onların dünya informasiya məkanına daxil olmaları, ümumbəşəri intellektual potensialdan operativ istifadə etmələri üçün geniş imkanlar yaratmalıdırlar. Məlum olduğu kimi, son illər kitabxana şəbəkəsinin genişləndirilməsi, onun maddi - texniki bazasının möhkəmləndirilməsi, fondların zənginləşdirilməsi, dünya kitabxanaları ilə faydalı əlaqələrin qurulması istiqamətində dövlətimiz tərəfindən məqsədyönlü tədbirlər görülür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2007-ci il aprelin 20-də imzaladığı "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" sərəncama əsasən "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" hazırlanmışdır.

Dövlət kitabxana fondlarında saxlanılan çap əsərlərinin və digər materialların uçotu, mühafizəsi və istifadəsi qaydaları Dövlət kitabxana fondlarında saxlanılan çap əsərlərinin və digər materialların uçotu, mühafizəsi və istifadəsi qaydalarının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kobinetinin Qərarı:

"Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli, 115 nömrəli Fərmanının 1-ci bəndinin 3-cü abzasının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Dövlət kitabxana fondlarında saxlanılan çap əsərlərinin və digər materialların uçotu, mühafizəsi və istifadəsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

Azərbaycan Respublikasının Baş naziri A. Rasizadə Bakı şəhəri, 6 mart 2000-ci il № 29

Bəli, kitabxana fondları təkcə mədəni irsimizin bir parçası kimi deyil, həm də cəmiyyətin mühüm informasiya mənbəyidir. Kitabxana fondunun öyrənilməsi çox mühüm, lakin mürəkkəb vəzifələrdən biridir. Təcrübələr göstərir ki, kitabxanaçı kitabxana fondunun formalaşma sistemini dərk etmədən onun mahiyyəti haqqında tam təsəvvürə malik ola bilməz. Buna görə də kitabxana fondunun əsas mahiyyətini təhlil etmək üçün onun sistem kimi öyrənilməsini mənimsəmək lazımdır. “Fond” yunan sözü olub “kitabsaxlayıcı” mənasında işlənmişdir. Fondun öyrənilməsi sistemi onun formalaşmasına daha əhəmiyyətli təsir göstərir, komplektləşdirmənin əsas cəhətlərini səmərələşdirir, sənədlərin seçmə prosesini elmi cəhətdən əsaslandırır. Öyrənmə sistemini iki qrupa ayırmaq olar:

1.Konkret kitabxana fondunun sistemdaxili öyrənilməsi;

2. Kitabxanalararası fondun sistem dairəsində öyrənilməsi.

YUNESCO-nun 1986-cı ildə keçirilən Baş Konfransında “Kitabxana materiallarının mühafizəsi üzrə beynəlxalq fəaliyyətlərin direktivləri” qəbul olunmuşdu. Bu sənəd hər bir ölkədə kitabxana fondlarının qorunmasının təmin olunması üzrə milli proqramların yaradılmasını nəzərdə tuturdu. Azərbaycanın da üzvü olduğu Avropa Şurası müasir mərhələdə kitabxanaların artan rolunu daim qeyd edir. 1999-cu ildə hazırlanmış “Avropada kitabxana işinə dair tövsiyələr”də qeyd olunur ki,

- Kitabxanalar həm informasiya zəncirində, həm də mədəni irsin qorunmasında əsas aktiv və əvəzolunmaz halqadır;

- Kitabxanalar cəmiyyətdə biliklərin yayılmasında vacib xarici əlaqəni həyata keçirirlər;

- Kitabxana irsi Avropa ölkələrinin mədəni irsinin əsas hissəsini və bununla da onların özünüdərkinin açar komponentini təşkil edir.

Bunu nəzərə alaraq 1986-cı ildə keçirilmiş YUNESKO-nun baş konfransında kitabxana fondlarının qorunması barədə milli proqramlar hazırlanmışdır. Bu cür proqramlar ABŞ, İsveç, Fransa, Kanada, Yaponiyada çox uğurla həyata keçirilir. Kitabxana fondlarının qorunmasını təmin edən layihələr Birləşmiş Mərkəzi proqramlar çərçivəsində, beynəlxalq strategiya əsasında aparılır. Hazırda dünyanın bir çox kitabxanaları öz fondlarının mövcud təhlükələrdən mühafizəsi problemlərinin həlli üzərində çalışmaqdadır.

Bu strategiyanın əsasını aşağıdakı prinsiplər təşkil edir:

- fondların mühafizəsi milli və dünyəvi mədəniyyətin, elmin dirçəlməsi üçün əsas şərtdir;

- hər bir dövlət öz kitabxana fondlarının qorunmasında özü məsuliyyət daşıyır;

- fondların qorunması ancaq dövlət və beynəlxalq səviyyədə kooperasiya nəticəsində mümkündür.

Kitabxana Assosiasiya Müəssisələrinin Beynəlxalq Federasiyası – İFLA dünya kitabxanalarının bu maraqlarını nəzərə alaraq, kitabxana fondlarının mühafizəsi sahəsində

hazırladığı materialları bütün kitabxanalara çatdırır. Bu materiallar kitabxana işçilərinə öz fondlarının mühafizəsi və qorunması sahəsində normal rejim şəraiti yaratmaq, bu sahədə olan problemlərin həlli yollarını axtarmağa və tapmağa kömək edir.

Dünya kitabxanalarında milyarddan çox müxtəlif sənədlər toplanmışdır ki, məsələn, əlyazmalar, çap, audiovizual, elektron və s. fiziki vəziyyəti böyük həyəcana səbəb olur. Kitabxana fondlarının qorunması məsələləri yeni binalar layihələndirməyi, həmçinin köhnə binaların genişləndirilməsini və ya təmirini müzakirə edir. Kitabların və qəzetlərin qorunması istiqamətindəki adi tədbirlərdən əlavə, fondların qorunması strategiyası bu məqsədlə yeni texnologiyaların istifadəsini, rahat giriş üçün və viruslardan, mikroorqanizmlərdən, həşəratlardan, həmçinin kompüterdə saxlanılanların sanksiyalaşdırılmamış istifadədən qorunmasını təmin etmək üçün informasiyanın yeniləşdirilmiş və dəyişdirilmiş maqnit daşıyıcılarının qorunmasını nəzərdə tutur. Bəli, bu gün kitabxanalar mövcud dünya mədəniyyətlərinin izləri hesab edilən yazılı sənədləri mühafizə edən saxlayıcılardır. Bu yazılı mənbələr bəşəriyyətin elm və yaradıcılıq nailiyyətləri ilə yanaşı, tarix və cəmiyyətin qarşılıqlı əlaqələrini də əks etdirir. Fikirləşdiklərimiz, yaratdıqlarımız və kəşf etdiklərimizdən ibarət olan bu materiallar keçmişin gələcəyə hədiyyəsi kimi çatdırılması üçün kitabxana fondlarında və arxivlərdə mühafizə olunur. Bəzən isə bu mədəniyyət ocaqları düşmən xəyanətindən qoruna bilmir. Çox təəsüflər olsun ki, Azərbaycana aid 903 dövlət qeydiyyatında olan, 1500 Dövlət qeydiyyatında olmayan tarix və mədəniyyət abidələri,

minlərcə əsərin qorunduğu 26 müzey, 8 rəsm sərgisi, 4,6 milyon kitab və əlyazma saxlanan 927 kitabxana, 85 incəsənət məktəbi, 20 mədəniyyət sarayı, 4 dövlət teatrı ermənilər tərəfindən işgal edilmişdir. Biz inanırıq ki, torpaqlarımız geri alınacaq və bu mədəniyyət müəssisələri yenidən bərpa ediləcəkdir. Kövrək davamsız və bəzən çox zərif olan bu materialların mühafizəsi üçün məsuliyyət kitabxanaçıların üzərinə düşür. Kitabxana fondu 100 000 nüsxələrlə sənədləri əhatə edən zəngin bilik xəzinəsi olmaqla minlərlə oxucunun əsl mütaliə mənbəyinə verilmiş sərvətdir ki, "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının qanununda deyilir: "Kitabxana elmi informasiya, mədəniyyət, təhsil, tərbiyə müəssisəsi kimi çap əsərlərinin digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların ictimai istifadəsini təmin edən, cəmiyyətin intellektual mənəvi potensialı inkişafına kömək göstərən sosial institutdur".

Fondun mahiyyətini bilmədən praktiki əhəmiyyətini müəyyən etmək, formalaşdırılması istiqamətini dəqiqləşdirmək, inkişaf istiqamətlərini konkretləşdirmək qeyri-mümkündür. Bu xarakterik xüsusiyyətlərin həllində kitabxana fonduna sistem baxımından yanaşılma mühüm rol oynayır. Sistemli yanaşma fondun əsas keyfiyyətini, əhəmiyyətini, məzmununu, yaranma prinsiplərini, təşkil olunma ünsürlərini xarakterizə etməyə imkan verir.

Fondu yaradan əsas ünsür sənəddir (sənəd-qəzet, kitab, jurnal).

Kitabxana sistemini sənəd toplusuna görə iki yerə ayırmaq olar: sadə və mürəkkəb

Sadə sənəd toplusu eyni tipli bir-birinə bənzər sənəd toplusuna (jurnallar, əlyazmalar, normativ standartlar) deyilir. Əgər kitabxana sistemində müxtəlif tipli və çoxlu nüsxəli sənədlər toplusu əhatə edilirsə onda belə sistem mürəkkəb xarakterli hesab olunur. Hər iki halda sənədlərin qarşılıqlı əlaqələri, sistem daxilindəki funksiyaları, fondun quruluşu, məzmunu, əhəmiyyəti nəzərə alınır. Fondun yaranması onun inkişafı kimi eyni zamanda onun mühafizəsi də mədəni inkişafın gedişi prosesi ilə müəyyən edilir. Belə ki, kitabxana fondu mühüm maddi əhəmiyyətə malikdir. Buna görə kitabxanaların əsas vəzifələrindən birini cəmiyyətin kitab sərvətinin mühafizəsi təşkil edir. Formalaşmış kitabxana fondunun mühafizəsi, oxucu marağının ödənilməsinə, kitab təmirinə, cildlənməsinə, nəşrlərin bərpasına sərf ediləcək səmərəsiz əməyin qısaldılması, onların təkrar əldə edilməsinə təsir göstərir. Zəngin kitabxana fondunun mühafizəsi dünya xalqları üçün sosial mədəni əhəmiyyətə malikdir.

1954-cü ildə Haaqada YUNESKO-nun təşəbbüsü ilə çağrılan dövlətlərarası konfrans mədəni sərvətin mühafizəsi sahəsində beynəlxalq müqavilə qəbul etmişdir. Müqaviləyə əsasən digər mədəni sərvətlərlə bərabər kitabxana fondunun məhv edilməsindən, qeyri-qanuni mənimsənmədən qorumaq üçün onun beynəlxalq mühafizəsi nəzərdə tutulur. Beynəlxalq kitabxana cəmiyyətləri, idarələri, ittifaqlarının proqramlarında göstərilir ki, kitabxana fondunun mühafizəsi milli kitabxana mərkəzinin fəaliyyətində ən mühüm problemlərindən biridir. Bu işdə kitabxana fondunun mühafizəsi problemi ilə məşğul olan xarici müəssisələrin əməkdaşlarının fəaliyyətini xüsusi qeyd etmək lazımdır.

Onların hazırladıqları tövsiyələr, kitabxana fondunun qorunması və bərpası məsələlərinin həlli üçün optimal istiqamətin seçilməsinə köməklik göstərir. Dünyanın bir çox kitabxanaşünasları əsərlərində keçmiş mədəni irsin varisliyi nöqteyi nəzərindən çıxış edirlər. Engelsin dili ilə desək, elm özündən əvvəlki biliklər məcmusunu əhatə etməklə inkişaf edir. Fondun mühafizəsi düzgün saxlanması, qorunması və zədələnmə faktorlarının aradan qaldırılması ilə mümkündür. Qorunma dedikdə kitabxana fondunun bütövlüyünə zərər verən amillərin profilaktikası və mühafizəsi üzrə kompleks tədbirlər sisteminin həyata keçirilməsi nəzərdə tutulur. Düzgün saxlama dedikdə, optimal fiziki, kimyəvi və bioloji qaydalara əməl etməklə, fondun xüsusi avadanlıqla təchiz olunmuş işıqlı otaqlarda yerləşdirilməsi nəzərdə tutulur. Kitabxana fondu ümumxalq əmlak olduğuna görə onların qorunması müstəqil dövlətin vəzifələrindən biridir. Azərbaycan Respublikasının Konstitusiyası hər bir şəxsin qarşısında dövlət əmlakının qorunması və bu işin möhkəmləndirilməsi vəzifəsini qoyur. Təsadüfi deyil ki, Konstitusiyamızın 40-cı maddəsində deyilir: Hər kəs tarixi mədəniyyətə, irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarixi və mədəniyyət abidələrini qorumalıdır.

1962 və 1980-ci illərdə kitabxanalar üçün məcburi olan kitabxana fondlarının mühafizəsi haqqında təminat hazırlanıb. Kitabxana fondunun mühafizəsi üçün bütün kitabxanaçılar ictimaiyyətlə birlikdə səy göstərməlidirlər. F.Köçərli adına Respublika Uşaq Kitabxanasında fondun mühafizəsinə olduqca ciddi yanaşılır. Hələ 1965-ci ildə Azərbaycan SSR Nazirlər Soveti və Mədəniyyət Nazirliyinin qərarı ilə ayrıca bina olmadığından M.Qorki adına kütləvi

kitabxananın fondu əsasında yaradılan kitabxanamızın 43.000 nüsxədən ibarət kitab fondu var idi. Həmin ədəbiyyatın 27.337 nüsxəsini uşaq ədəbiyyatı təşkil edirdi. Hazırda F.Köçərli adına Respublika Uşaq Kitabxanasının

Kitab fondu – 272744
Dövri mətbuat fondu –109450
Qəzet və jurnal məqalələri fondu- 140450
Qəzet və jurnal məqalələri (elektron )-6900
Elektron resurslar- 3082
Elektron kitablar- 20967
Elektron kataloqun həcmi -272744
Elektron kartoteka -115253 mövcuddur.

Yeni binada yerləşən kitabxananın bütün şöbələri ilə bərabər, kitabsaxlayıcı şöbəsi də yeni avadanlıqla təchiz olunmuşdur. Kitabxana fondunun işıqlandırılması və havalandırılması üçün hər bir tərəfdən nəfəsliklər qoyulub, kitab rəfləri döşəmədən 30 sm hündürlükdə quraşdırılıb ki, bu da havalanmanın yaxşı təşkil olunmasına təminat verir. Fonddakı ədəbiyyat kitabxana rəhbərliyinin eyni zamanda şöbə müdiri və işçilərinin ciddi nəzarəti altında olduğundan kitabxanamızda ədəbiyyatın korlanması və məhvindən söhbət gedə bilməz. İş təcrübəmizə əsaslanaraq kitabxana fondlarının mühafizəsi işində kitabxana işçilərinə yaxından kömək etmək məqsədilə hazırladığımız elmi-metodiki vəsaiti sizə təqdim edirik.

**Kitabxana fondlarının mühafizəsi**

Kitabxana fondlarının mühafizəsi üçün aşağıdakılara riayət edilməlidir:

a) fond orqanlarında hava rejiminə düzgün əməl edilməsinə;
b) oxucuya verilən və qaytarılan ədəbiyyatın kitabxanaya daxil olmasının vaxtında uçotu və nəzarət;

c) elektrik, istilik, hava, su və digər qurğulara, yanğın təhlükəsinə nəzarət;

ç) ədəbiyyatın müxtəlif zərərvericilərdən mühafizəsinə. Universal elmi kitabxanalarda fondun etibarlı mühafizəsini təşkil etmək məqsədi ilə əlyazmaları, nadir kitablar və xüsusi qiymətli nəşrlər üçün **“nadir kitablar fondu”**, ehtiyat ədəbiyyat üçün **mübadilə fondu**, az istifadə olunan ədəbiyyat üçün isə **depozitar fond** yaradılır. Kitabxanalarda olan nadir və qiymətli nəşrlər xüsusi rejimdə mühafizə olunur və qanunvericilikdə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının milli-mədəni sərvətlər reyestrinə daxil edilə bilər. Həmin ədəbiyyatın mühafizəsi lazımi qaydada təmin edilmədikdə, müvafiq icra hakimiyyəti orqanı tərəfindən digər kitabxanaya verilə bilər.

Kitabxanada sənədlərin fiziki vəziyyətinə aşağıdakı faktorlar qrupu təsir edir:

**Fövqəladə hallar**
**Təbii fəlakətlər**
**Atmosfer faktoru**
Aerozol, müxtəlif qazlar, təsərrüfat fəaliyyəti ilə əlaqədar müxtəlif tullantılar və s.
**Dalğavari enerji faktoru:** Maqnit sahələri, istilik və işıq şüaları və s.

**Sosial faktorlar:** Kitabxanaya oxucu tərəfindən vurulan zərər – kitabın itməsi, səhifənin cırılması, kitabın oğurlanması;

**Bioloji faktorlar:** Bakteriyalar, göbələklər, həşəratlar, gəmiricilər.

**Kitabxana sənədlərini necə qorumalı?**

Kitabxanada normal temperatur rejimi və havanın rütubətliyinin normalda saxlanması sənədlərin düzgün qorunub saxlanmasına əsas şərtlərdəndir. Fondun mühafizə olunmasının optimal şərti belədi:

Kağız əsaslı: Temperatur +17-19 dərəcə S
Havanın rütubəti -55%
Polimer əsaslı: +10 dərəcə S
Havanın rütubəti – 20-30%
Elektron sənədlər necə qorunmalı:
Kompakt disklər

1) Temperatur 10-20
2) Rütubət 20-65%
3) Rüb ərzində rəflərin qismən bir dəfə təmizlənməsi
4) Kompakt disklərin ildə bir dəfə vəziyyətinin testləşdirilməsini yoxlamaq.

Fondda kitabların düzülüşü: 35 sm qədər formatlı kitab və jurnallar fondda şaquli vəziyyətdə, 35 sm çox formatlı kitablar və jurnallar isə üfüqi vəziyyətdə rəflərə düzülür. İşıqlandırma zamanı 2m rəflərarası sahəyə bir 40-60 vt lampa, keçiddə 4-5 m sahəyə 75 vt 1 lampa qoyulur. Fondun mühafizəsi qanunlarla müəyyən edilir.

Fondun öyrənilməsi sistemi kitabxananın digər struktur ünsürləri ilə sıx surətdə əlaqədardır. Bu ünsürlərin struktur bölgüsünə kitabxananın yarımhissələri də deyilir. Burada yarım hissələrin bir neçə cəhətini nəzərə almaq lazımdır. Onları bu şəkildə qruplaşdırmaq olar:

a) Kitabxana fondu;
b) Oxucu kontingenti;
c) Kitabxana işçi heyəti;
d) Maddi – texniki baza.

Bu yarımsistemlər arasında sıx əlaqə, vəhdət və qarşılıqlı bağlılıq mövcuddur. Bütün kitabxana sistemlərindən fərqli olaraq kitabxana fondu özlüyündə yarımsistem kimi daha ümumi xarakter daşıyır. Bəli, fond birdən - birə yaranıb indiki səviyyəsinə çatmamışdır. O, təcridlə inkişaf etmiş, artmış, formalaşmış və əsl mənada öz həqiqi qiymətini ala bilmişdir. Onu da qeyd etmək lazımdır ki, heç bir kitabxana fondsuz mövcud ola və öz mühüm vəzifəsini yerinə yetirə bilməz. Fondun yarımsistem kimi zənginləşməsində oxucu kontingenti də mühüm rol oynayır. Məlum olduğu kimi, fond müəyyən oxucu qrupları üçün nəzərə alınaraq təşkil edilir. Məhz buna görə də bu yarımsistemlərin qarşılıqlı əlaqəsini həmişə komplektləşdirmə işində əsas götürmək lazımdır. Lakin fond ilə oxucu əlaqəsinin başlıca istiqamətverici qüvvəsi kitabxananın işçi heyəti hesab olunur. Kitabxanaçı həm oxucuların ümumi sorğu istiqamətlərini, həm də fondun formalaşma sistemini, profilini seçmə dolğunluğunu müntəzəm olaraq nəzərə alır və fond – oxucu əlaqələrini həyata keçirir. Fondun əsas tərkib hissələrindən birini də

dövri nəşrlər təşkil edir. Jurnal, qəzet nəşri davam edən məcmuələrdən ibarət olan bu sənədləri bütün kitabxana fondlarında müşahidə etmək olar. Kütləvi kitabxanalarda dövri nəşrlər fondun 15% təşkil edirsə, elmi kitabxanalarda jurnallar, qəzetlər, nəşri davam edən məcmuələr, bülletenlər, elmi xəbərlər, təqvimlər fondun 45-50 faizini tutur. Bu nəşrlərin fondlarında komplektləşdirmə əhəmiyyəti getdikcə artır və müasir dövrdə kitablara nisbətən daha operativ xarakter daşıyır. Belə ki, bu nəşrlərdə elmin, texnikanın, mədəniyyətin yenilikləri daha operativ işıqlandırılır, istər respublikada, istərsə də xarici ölkələrdə baş verən hadisələr əks etdirilir. Lakin bu nəşrlər kitaba nisbətən daha tez köhnəlir. Bununla belə, həmin nəşrlər fondun formalaşmasında mühüm rol oynayır.

Kitabxana fondunun tərkib hissələrindən birini kinofotofono sənədlər təşkil edir. Kinofotofono sənədlərin üstünlüyü ondadır ki, onlar informasiyanın dərk edilməsinə və emosional hisslərin şəxsi zövqlərin genişləndirilməsinə əsaslı təsir göstərir, habelə onlar təkcə şəkillərin deyil, bilavasitə səslərin və təsvirlərin qeydini də aparmağa imkan verir.

Kinofotofono sənədlər müxtəlif formada nəzərə alınır:

a) Kino sənədlər, yəni hərəkətedici şəkillər;
b) foto sənədlər, yəni səs yazılarını ifadə edən materiallar.

Kino sənədlərinə kinofilmlər və videoyazılar daxildir. Foto sənədlərinə albomlar, fotoşəkillər daxildir. Lakin bu sənədlərin əldə edilməsi və mühafizə olunması hələ də baha başa gəlir, informasiyanın lazımi tezliklə mənimsənilməsi imkanını təmin edə bilmir, bu işi yalnız quraşdırıcılar, alətlar

və maşınlar əsasında yerinə yetirmək mümkündür. Respublikamızda kitabxanalar öz fondlarının tərkibcə zənginləşdirilməsinə ciddi səy göstərir və onları dövrün tələbləri səviyyəsində formalaşmasına mühüm diqqət yetirir. Fəal iş aparan hər hansı kitabxananın fondları, bir növ, canlı orqanizmə oxşayır. Mütəxəssislərin vəzifəsi bu orqanizmin həyatında baş verən dəyişikliklərə həssas reaksiya verməkdən ibarət olmalıdır.

**Kitabxana fondlarının mühafizəsinə təsir göstərən fiziki-kimyəvi amillər**

Bəli, bu gün kitabxana insanların informasiya təlabatını ödəmək üçün dünya biliklərinə açılan pəncərə, mədəni dəyərlərin mühafizəsini təmin edən və nəsillərdənnəsillərə çatdıran bir elm müəssisəsidir. Belə kitabxanalardan biri də xalqımızın gələcəyi olan uşaqlara kitabxana xidmətinin təşkili sahəsində böyük təcrübəsi və xidmətləri olan, respublikada uşaq kitabxanaları üzrə elmi metodik mərkəz sayılan F. Köçərli adına Respublika Uşaq Kitabxanasıdır. Kitabxana öz fəaliyyətində xalqımızın ümummilli lideri Heydər Əliyevin gələcəyimiz olan uşaqlar haqqında müdrik kəlamını rəhbər tutmuş, öz işini bu kəlamın həyata keçirilməsi uğrunda mübarizəyə həsr etmişdir. Heydər Əliyev deyir: “Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır”.

Dövlət Proqramının kitabxanaçıların qarşısında qoyduğu vəzifələrdən biri rayon kitabxanalarında yaradılan informasiya mərkəzlərinə kömək etməkdən ibarət olmuşdur. Kitabxanamız Azərbaycanda fəaliyyət göstərən bütün uşaq kitabxanaları üzrə elmi metodik mərkəz olmaqla Azərbaycan

uşaq ədəbiyyatının, çap məhsullarının saxlayıcısı hesab olunur. Bu məqsədlə saytımızda (www.clb.az) kitab adidələri rubrikası açılmış və orada qızıl fonddan bəzi kitabların təqdimatı hazırlanaraq oxucuların diqqətinə çatdırılır.

Avtomatlaşdırma şöbəsinin inkişaf etməsi və səyi nəticəsində şöbələrarası əlaqələri təmin edən lokal kompüter şəbəkəsi yaranmış və avtomatlaşdırılmış İnformasiya sisteminin tətbiqi istiqamətində bir sıra vacib işlər görülmüşdür. Hazırda şöbə fonddan daha çox istifadə edilən, sorğu tələb edən kitabların və qəzet, jurnal məqalələrinin elektron informasiya daşıyıcılarına köçürülməsi və elektron kataloqun tam yaradılması prosesini müvəffəqiyyətlə həyata keçirir. Elektron kataloqda kitabların, elektron kartotekada qəzet, jurnal və kitabiçi məqalələrin təsviri verilmişdir. Kitab fondunda olan xüsusi əhəmiyyətli və oxucular tərəfindən soruşulan kitabların tammətni hazırlanaraq rəqəmli daşıyıcılara köçürülmüş və saytda elektron kitablarda yerləşdirilmişdir. Retro bazasında isə kiril qrafikasında olan azərbaycan dilində kitablar daxil edilmiş və hazırda bu iş davam edir. Bu ilin sonuna qədər kitabxananın bütün fondunun elektron kataloqda əks etdirilməsi qarşıda duran məsələlərdəndir.

Bununla bərabər Avtomatlaşdırma və kompüterləşdirmə şöbəsi aşağıdakı fəaliyyətləri həyata keçirir:

1. Kitabxanaya daxil olan bütün sənədlərin (kitab, dövri mətbuat, elektron informasiya daşıyıcıları, atlas, xəritə və s.) avtomatlaşdırılmış proqram əsasında işlənərək, fonda daxil edilməsi, o cümlədən retro məlumat bazasında kitabların işlənməsinə nəzarət;

2. Elektron kataloqun və elektron kitabxananın yaradılmasına texniki dəstək;

3. Kitabxananın veb-səhifəsini yeniləmək və burada elektron kataloqun ümumi istifadəsini təmin etmək;

4. İnternet vasitəsilə elmi forumlar yaratmaq;

5. Kitabxanaya daxil olan elektron informasiya daşıyıcılarını mühafizə etmək və istifadəçilərə çatdırmaq, elektron kitabxanada əks etdirmək;

6. Kitabxananın nəşrlərini çapa hazırlamaq.

Bəli, bu gün F. Köçərli adına Respublika Uşaq Kitabxanası respublikanın mədəni həyatında fəal iş aparır. Saytımızın "Kitab abidələri" rubrikası üzrə kitabxana fondunda olan ən qədim kitabların (1927-1960) siyahısı Power Point proqramında hazırlanmış və kitabxananın elektron saytında yerləşdirilmişdir. 2012-ci ildə həmin kitabların Tammətnli verilənlər bazasında yerləşdirilməsi, elektron sənədlərin toplu kataloqunda uşaq dövri mətbuat sənədlərinin işlənməsi nəzərdə tutulmuşdur.

Respublika Uşaq Kitabxanası uşaq ədəbiyyatının dövlət kitabsaxlayıcısı, uşaqlara kitabxana xidmətinin informasiya və uşaq kitabxanalarının elmi-metodiki mərkəzidir. Ona görə də F.Köçərli adına Respublika Uşaq Kitabxanasının qarşısında ölkə miqyasında uşaqların təhsil və tərbiyəsində, uşaq mütaliəsinin təşkilində, mütaliəyə rəhbərlikdə müxtəlif tipli uşaq kitabxanalarının işinin əlaqələndirilməsində mühüm əhəmiyyət kəsb edən məsələlərin elmi-metodiki həlli problemlərini araşdırmaq, ümumiləşdirmək və həyata

keçirmək vəzifələri qoyulmuşdu. Bu vəzifələrin müvəffəqiyyətli həlli hər şeydən əvvəl kitab fondunun günün tələblərinə cavab verməsini, ədəbiyyatla komplektləşdirilməsini və ədəbiyyatın sayının artırılmasını, kitabxananın maddi texniki bazasının möhkəmləndirilməsini, ən əsası isə kitab fondunun mühafizəsini zəruri edir.

Belə ki, kitabxana fondunun saxlanmasının mühüm vəzifələrindən biri kitabxana fondunun maddi əsasını korlayan səbəbləri vaxtında aradan qaldırmaq və nəşrlərin kimyəvi xüsusiyyətlərinin itirilməsinin (kitabların köhnəlməsi, qabarması, saralması, emosiyanın dağılması və s.) aradan qaldırılmasıdır. Fondun təşkili, kitabxanaların maddi möhkəmliyi o vaxt təmin oluna bilər ki, istifadə edilən və daşınan zaman kitablarla səliqəli rəftar edilsin. Xüsusən də mexanikləşdirilmiş və avtomatlaşdırılmış sistemlərdə kitabların daşınmasına xüsusi diqqət yetirmək lazımdır. Daşınma zamanı kitab maşın yağı ilə ləkələnə bilər, ona mexaniki zərər dəyər. Məlumat daşıyıcılarının tərkib hissəsi nə qədər möhkəm olsa, xidmət müddəti bir o qədər çox olar. Ötən zamanlardan perqament və əski kağızlardan ibarət sənədlər yaxşı vəziyyətdə bizə çatıb. Ancaq müasir qəzet kağızı qısa vaxtda saralır, kövrəkləşir. Belə ki, ağac kütləsi və yapışqandan ibarət kağız işığın təsiri ilə korlanır. Hal-hazırda yüksək keyfiyyətə və möhkəmliyə malik kağızların hazırlanması üçün axtarışlar aparılır. Sintetik kağızlar hazırlanır. Sintetik kağız suda korlanmaması və ağlığı ilə fərqlənir. Audiovizual materialların uzun müddətli mühafizəsi məsələsi ciddi problemlərdən biri kimi qarşıda durur. Mikrolentlərin mühafizəsi üçün istilik, rütubət qaydalarına riayət mühüm əhəmiyyətə malikdir. Kitabxana

fondunu təşkil edən materialların möhkəmliyi, onların örtülü mühafizəsini təşkil etməklə təmin olunur. Fondun uzun müddətli mühafizəsi bir sıra amillər əsasında müəyyən edilir: **1**. xarici; **2**.təbii; **3**. süni şərait.

Xarici aləmin əsas göstəricisini havanın fiziki xüsusiyyətləri, istilik, rütubət, müntəzəm kimyəvi tərkibli qarışıqlar, mikroflora bakterioloji çirklənmə təşkil edir. Bu xüsusiyyətlərin optimal parametrləri fondun mühafizəsində aşağıdakı şəkildə tətbiq edilir. Fondda ən yaxşı istilik 16-18 dərəcədir. İstiliyin kəskin dəyişməsi məlumat daşıyıcılarının fiziki, kimyəvi xüsusiyyətlərinə mənfi təsir göstərir. Bütün nəşrlərin növləri üçün rütubət 50-60,5% olmalıdır. Burada mikroiqlimlər müstəsnalıq təşkil edir. Havanın rütubəti 2 dəfə az tələb olunur. Havanın rütubəti hidro-metr və ya elektrik rütubət ölçən cihazlarla müəyyən edilir. Kitabxanada havanın nisbi rütubətini müəyyən etmək üçün psixometrdən istifadə olunur. Kitabxana fondunu hava mühitinin əsas amillərindən biri havanın hərəkət etmə dərəcəsidir. Havanın hərəkət etmə sürəti 0,3 milli saniyəyə bərabər olmalıdır.

Fondların havası zərərli kimyəvi mexaniki maddələrlə də çirklənə bilər. Həmin maddələr sulfid karbon oksidi, azot turşusu, qətranlı maddələrdən ibarətdir. Bu cür qazların qarşısını almaq üçün otağa daxil olan havanın kondisionerləşməsinin böyük əhəmiyyəti vardır. Daxili zəhərlənmə mənbələrini aradan qaldırmaq üçün kitabxanalarda yerləşən və bərk yanacaq əsasında qızdırılan istilik sisteminin düzgünlüyünə xüsusi diqqət yetirmək lazımdır. Fondun tozdan təmizlənməsi ildə iki dəfə tozsoran alət vasitəsi ilə və ya əllə həyata keçirilsə yaxşı olar.

Kitab fondunun dağılması bilavasitə işıq axınının gücündən və uzunmüddətli təsirindən asılıdır. Bu səbəbdən də lampa aşağıdakı formada olmalıdır: kitabsaxlayıcılarında işığın yalnız iş zamanı istifadə edilməsi, bilavasitə istifadə edilən fond hissəsinin işıqlandırılması, fond ilə aparılan konkret əməliyyatların əhəmiyyətli olması, yanğına qarşı mübarizə nöqteyi-nəzərindən işığın düzgün bölüşdürülməsi və təhlükəsiz olmasıdır.

Kitabsaxlayıcıda işığın iki növündən istifadə olunur.

1. Təbii
2. Süni işıq

Təbii işığa günəş və ya səpələnmiş gündüz işığı daxildir. Kitab fondu imkan daxilində birbaşa otağa düşən günəş şüalarından mühafizə edilməlidir. Belə ki, birbaşa otağa düşən gün şüaları fonddakı sənədlərdə optik dəyişiklik yaradır, davamlılıqlarını pozur, kataloqları saraldır. Günəş şüalarının təsiri ilə mikrobio filmlərin şəkil qatı korlanır. Fonda işıq enerjisinin foto kimyəvi təsirindən sənədləri qorumaq üçün ən sadə əlverişli formalardan biri səyyar kitab rəflərindən istifadədir. Səyyar rəflər fonda işıq şüalarının daxilini minimuma endirir. 1920-ci ildə rus alimlər öz təcrübələrində qaranlıq kitabsaxlayıcılarına əsaslanmışlar. 1930-cu illərdən dünyanın iri nəhəng kitabxanaları üçün qaranlıq kitabsaxlayıcıların tikilməsi təcrübəsi tətbiq edilməyə başlandı. Hər bir kitabxanada müxtəlif səbəblərdən dağılmış, korlanmış sənədlərin təmir edilməsi və fondun bərpası üçün xüsusi laboratoriyalar təşkil olunmalıdır. Belə laboratoriyalar, fondun bərpası və saxlanması üçün üsullar hazırlayıb tətbiq etməlidir. Kitabxanalarda kitabların təbii köhnəlməsinin qarşısını almaq üçün ən qiymətli nəşrlərin

saxlanmasına, daim mühafizə edilməsinə diqqəti artırmaq lazımdır. Bu məqsədlə fondun saxlanması və mühafizə edilməsi qaydalarına xüsusən nəzarət edilir, imkan daxilində kitablar oxuculara az verilir və ya heç verilmir. Bunların əvəzində isə mikrofilmlərdən istifadə olunur. Əgər kitabın orijinalı lazımdırsa, onda oxucu bilavasitə kitabsaxlayıcıdan istifadə edə bilər. Ən qiymətli çap əsərləri seyflərdə saxlanılır. Və orada avtomatik olaraq nəzərdə tutulmuş istilik və rütubət təmin olunur.

Fondun saxlanması problemi üzrə ölkəmizdə və xarici ölkələrdə bir sıra mütəxəssislər və alimlər çalışırlar. Keçmiş SSRİ-də çap əsərlərinin, əlyazmaların və digər materialların köhnəlmə səbəblərini öyrənmək üçün, habelə onların uzunmüddətli saxlanmasında səmərəli vasitələrin axtarılması üçün bir sıra xarici ölkə kitabxanalarında laboratoriyalar və elmi-tədqiqat mərkəzləri yaradılmışdır.

Kitabxanadakı digər problemlərdən biri də fondun yanğın təhlükəsizliyidir. Belə ki, əgər kitabxana fondun təhlükəsizliyini qorumazsa, onda fondun uzunmüddətli saxlanmasını təmin edən tədbirlərin heç bir effektivliyi ola bilməz. Yanğın kitabxanaya nəinki əvəzedilməz dərəcədə maddi və mənəvi ziyan vurar, habelə kitabxanada olan adamların həyatı üçün də təhlükə yaradar.

Kitabxana fondu müntəzəm olaraq yüksək yanğın əşyalarının, oksidləşdiricilərin, alovlanma mənbələrin mövcud olmasıdır. Kitabxanada yanğın əşyalara döşəmələr, örtüklər, mebellər, kağızlar, kartonlar, fotolar daxildir. Oksidləşdiricilərə isə kitabxana binasının hər bir guşəsində mövcud olan oksigen havası daxildir. Alovlanma mənbələlərinə elektrik xətlərinin korlanması, istilik

sistemlərinin düzgün istifadə edilməməsi, kitabsaxlayıcılarda popiros çəkmək və s. daxildir.

Məlum olduğu kimi yanğının qarşısını almaq, yanğını söndürməyə nisbətən daha asan olduğuna görə yanğın əleyhinə mühafizə hər şeydən əvvəl mühüm profilaktik tədirlərə isnad etmək lazımdır. Bunlara aşağıdakılar daxildir: kitabxana binasının və otağının düzgün planlaşdırılması və tikilməsi, kitabxana əməkdaşlarının və oxucuların yanğın



əleyhinə qaydalara əməl etməsi. F.Köçərli adına Respublika Uşaq Kitabxanası öz fondunu qorumaq məqsədilə yanğın təhlükəsini aradan qaldırmaq məqsədilə karbon qazlı yanğın söndürmə balonlarını kitabxananın hər bir otağında yerləşdirilmiş, onlardan istifadə qaydası ilə işçilər tanış olmuşdur. Bununla yanaşı kitabxanamızda yanğından mühafizə siqnalı qurulmuşdur. Bu həyəcan siqnalını verən cihaz otaqların tavanlarına bərkidilmişdir. Yanğın zamanı tüstü cihaza çatdıqda yanğın siqnalı səslənir. Siqnala nəzarət mühafizə edənlər tərəfindən həyata keçirilir. Yanğından mühafizənin bu sadə vasitələrinin hər bir kitabxanada tətbiqi zəruridir. Kitabxananın yanğın təhlükəsizliyi elektrik xətlərinin düzgün yerləşdirilməsindən və istifadə edilməsindən əhəmiyyətli dərədəcədə asılıdır. Kitabxana böyük olduqca elektrik enerjisindən daha çox miqdarda istifadə edilir. Elektrik xəttləri divariçi aparılır, elektrik lampaları, elektrik lövhələri və digər elektrikli qurğular örtülü şəkildə tətbiq edilir. Kitabxanalarda elektrik qorucularının qeyri-iş saatlarında elekrik avadanlıqlarının tam fəaliyyətini

dayandıran tutqacın olması vacibdir. Kitabsaxlayıcılarda təkcə təcrid olunmamış oddan, müxtəlif tipli elektrikqızdırıcı alətlərdən, cərəyan qəbuledicilərin digər yerlərə aparılmasından müvəqqəti elektrik xəttlərindən və s. istifadə etmək qəti qadağan olunur. Kitabxanalarda ədəbiyyatın vaxtından əvvəl korlanmasında otaq havasının da rolu böyükdür. Bunun üçün fondlarda və oxu zallarında yaxşı olar ki, dibçəklərdə təbii güllər qoyulsun. Bitkilər otaqların havasını təmizləməklə ədəbiyyatın vaxtından əvvəl korlanmasının qarşısını alır. Təmiz və oksigenlə zəngin olan hava həm də kitabxana işçilərinin sağlamlığı üçün xeyirdir. Təbii bitkilərin tam əksi olaraq kitabsaxlayıcıda suni güllərin saxlanması yolverilməzdir. Belə ki, sintetik güllər tozu özünə çəkmir və onların təmizlənməsi çətin olur. Kitabxana binaları tikilərkən və ya fond üçün uyğun otağı seçərkən günəş işığının düşməsinə və seçilən məkanın rütubətli olmamasına fikir vermək lazımdır. Rütubət kağız materiallarının bir nömrəli düşmənidir. Rütubət kif göbələklərinin yaranmasına səbəb olur. Bunun nəticəsində fondda olan materiallar tez bir zamanda cürüyərək sıradan çıxır. Əgər sizin kitabxananızda belə bir problem varsa, onu tezliklə aradan qaldırmaq lazımdır. Bu vəziyyəti düzəltmək üçün ilk növbədə kitabxananın istilik və vintilyasiya sistemi qaydasında olmalıdır. Belə hallarla fondu zirzəmidə olan kitabxanalar daha çox rastlaşır. Ona görə də həmin kitabxanalar xüsusilə bu işə diqqətlə yanaşmalıdırlar. Belə şəraitdə fondu olan kitabxanaçılar kiflənərək xarab olmuş kitabları fonddan xaric etməlidirlər. Çünki kif göbələyi yayılaraq çoxalma xüsusiyyətinə malikdir. Bu da məhv olan kitablardakı "xəstəliyin" saf kitabları "yoluxdurmasına" səbəb olur. Kif

göbələklərinin artması təkcə ədəbiyyatı məhv etmir, havaya dağılaraq insanın nəfəs yolları vasitəsi ilə bədənə daxil olur. Bu da müxtəlif xəstəliklərin yaranmasına səbəb yaradır. Belə xəstəliklər kitabxananın işçiləri ilə yanaşı, oxucuların sağlamlığını da ciddi təhlükə altında qoyur. Halbuki, kitabxanalarda insanların mədəni təfəkkürünün və maariflənməsinin qayğısına qalınmaqla yanaşı, onların sağlamlığına da xüsusi diqqət yetirilməlidir. Onu da qeyd edək ki, kitab fondlarında zədələnmiş kitabların hamısını atmağa ehtiyac yoxdur. Az zədələnmiş kitabların bərpası vacibdir. Bu məqsədlə bütün kitabxanalarda ədəbiyyatın bərpası ilə məşğul olan ayrıca bölmə və ya işçi yeri olmalıdır. Kitabxanamızda bu işlə məşğul olan ayrıca işçi yeri ayrılmışdır. Kitabxana fondunu vaxtaşırı köhnə və yararsız ədəbiyyatdan təmizləmək lazımdır. Yaxşı olar ki, kitabxanalar bu işə daha ciddi yanaşaraq komissiya təşkil etsinlər. Komissiya kitabxananın ən təcrübəli kitabxanaçılarından təşkil olunmalıdır. Komissiyanın birgə müzakirəsi nəticəsində ədəbiyyatın nə dərəcədə əhəmiyyətli olması və onun çıxarılıb çıxarılmamasına birlikdə qərar verilməlidir. Onu da deyək ki, köhnəlməsi yaxud köhnə əlifbada olması ucbatından kitabların hamısını kitabsaxlayıcıdan uzaqlaşdırmaq lazım deyil. Hər kitabdan bir nüsxə mütləq kitabxanada saxlanılmalıdır. Çünki köhnə də olsa hər bir kitab, onların hər biri bir tariximizdir, mədəniyyət abidəsidir və onlara hər zaman tələbat var.

Kitabxanalarda kitabların bərpası ilə məşğul olan “kitab bərpası” şöbəsinin fəaliyyət göstərməsi zəruridir. Belə ki, belə şöbələr böyük kitabxanalar üçün zəruridir. Kiçik kənd və

rayon kitabxanaları isə bu işlə məşğul olmaq məqsədilə ayrıca işçi yeri ayırmalıdır. Məlumdur ki. hər bir kitabın hazırlanması uzun bir istehsal yolu keçir. Kağızın hazırlanmasında minlərlə ağac kəsilərək məhv edilir. Ümumilikdə onu qeyd edək ki, kitabxanalar hər bir ölkənin sənəd fondu, onun ən dəyərli sərvəti hesab olunur. Sənəd fondu vasitəsilə hər bir xalq öz mədəniyyəti, tarixi, incəsənəti və ədəbiyyatı haqqında informasiyanı gələcək nəsillərə ötürür. Odur ki, bu dəyərli sərvəti qorumaq bütün kitabxanaçıların borcudur.

## Kitabxana fondlarının mühafizəsi problemləri və onların aradan qaldırılması yolları

Kitabxana fondu, onun öyrənilməsi mühüm məsələlərdən biri hesab edilir. Bununla əlaqədər olaraq kitabxana işçilərinin öhdəsinə düşən ən vacib məsələ kitabsaxlayıcılarda tez-tez baş verən böyük itkilərə təsir göstərməkdən, onların qarşısını almaqdan ibarətdir.

Fondun mühafizəsinə müxtəlif amillər təsir göstərir. Kitabxana fondunun uzun müddətli mühafizəsində kitab və digər sənədlərin hazırlanmasında istifadə edilən materialların texniki möhkəmliyi, bioloji davamlılığı nəzərə alınır. Kitabxanaçılar aşağıdakılara xüsusilə diqqət yetirməlidir:

1. Kitabxanaçılarda və oxucularda kitabxana fondunun mühafizəsi sahəsində məsuliyyət hissinin tərbiyələndirilməsi;

2. Mühafizədə düzgün mikroiqlim qaydalarının tətbiqi (düzgün işıqlandırma, temperaturun normallığı və tozlardan daimi təmizlənmə);

3. Daxil olan kitabların verilişinin və qaytarılan ədəbiyyatın müasir uçotu və ona nəzarət;

4. Mühəndis-texniki avadanlığın (elektrik qurğuları, qızdırma sisetmləri, vintilyasiya və s.) düzgün istismarına, yanğın təhlükəsizliyinə nəzarət;

5. Fondun ziyanvericilərdən bioloji mühafizəsi.

## Kitabxana fondlarına təsir göstərən sosial amillər və oxucularda kitabla davranışın tərbiyəsi

Müstəqil dövlət şəraitində sosial amillərin xüsusi əhəmiyyəti var. Kitabxanaçının vəzifəsi hər bir oxucuya kitabxana fondunun ictimai əhəmiyyətini çatdırmaq, kitabxanadan və kitabdan düzgün istifadə etmək qaydalarını izah etmək, kitablarının mühafizəsində şəxsi marağı tərbiyələndirmək, kitablara qayğı ilə yanaşmağın müvafiq vərdiş, adətlərini, bacarığını alışdırmağa kömək etməkdən ibarətdir. Kitabxanaçı oxucuların kitaba qayğı ilə yanaşma prosesini, əhəmiyyətini, metodlarını tədricən genişləndirmək məqsədi ilə onlarla müntəzəm iş aparmalıdır. Aparılan iş konkret oxucu qruplarının xüsusiyyətlərinə uyğun gəlməli və yaş hədlərinə görə maksimum dərəcədə fərdiləşdirilməlidir. Yadda saxlamaq lazımdır ki, əgər kitabxana fonduna laqeyd və ya səhv münasibət tezliklə aradan qaldırılmasa, o dərinləşə bilər.

Kitaba qayğı göstərməyin tərbiyə edilməsi məktəbəqədər və azyaşlı məktəblilərdən başlanır. Kiçik uşaqlara kitabı sevdirmək üçün onun yanında kitabı silib təmizləmək, ülvi münasibət bəsləmək lazımdır. Kitab haqqında sevə-sevə

danışmaq, hər gün onu oxumaq və kitabı necə saxlamaq haqqında uşaqla söhbət etmək lazımdır. Uşaq anlamalıdır ki, hər bir kitab böyük kollektiv əməyi ilə əmələ gəlir. Bu işdə inandırmanın ən təsirli üsullarından biri uşaqlara kitabların yaranması prosesini göstərmək, onun yaranmasında sərf edilən əməyi, qayğını nümayiş etdirmək lazımdır. Bu məqsədlə kitabxanaçının rəhbərliyi ilə oxucuların nəşriyyatlara, redaksiyalara ekskursiyasını təşkil etmək olar. Ekskursiya zamanı yaxşı olar ki, iş prosesi nəşriyyatçı tərəfindən uşaqlara izah olunsun. Belə ki, bu zaman uşaqlar kitab, qəzet və jurnalların necə zəhmətlə ərsəyə gəldiyini görəcək və mütaliə zamanı oxuduqları sənədə ehtiyatla və səliqə ilə yanaşacaqlar. Yaxşı olar ki, hər ilin bir günü oxucular oxu zalı və abonementdə çalışan kitabxanaçıları əvəz edərək onların nəzarəti altında kitabxanada bir iş günü keçirsinlər. Beləcə, uşaqlar həm işlə tanış olar, həm kitabla davranmaq qaydalarını öyrənər, həm də kitabxanaçının əziyyətli işindən agah olmuş olarlar. Bununla yanaşı uşaqları kitabların mühafizəsi haqqında tədbirlərlə də tanış etmək lazımdır. Oxucuların, xüsusən kitabların təmirində və bərpa edilməsində bilavasitə iştirakı xeyli əhəmiyyət daşıyır. Qeyd etdiyim kimi, uşaqlarda erkən yaşlarda kitaba qayğı hissinin tərbiyələndirilməsi mühüm rol oynayır. Kitablara səliqəsiz yanaşmanın pis hərəkətlərlə müqayisə edilməsi və ya uşaqlara hər hansı korlanmış kitabı göstərmək gənc oxucularda təəssüf hissi doğurur. Bu hisslərin tərbiyələndirilməsi kitab fondunda səliqəsizlik üzündən baş verəcək ziyanı əvvəlcədən dərk etməyə imkan verir. Kitabla rəftarı oxuculara aşılamaq məqsədilə kitabxananın oxu zalında, abonomentdə plakatlar asmaq olar:

## Kitabla düzgün rəftar et!

1. Kitab oxuyarkən kitabına qayğı ilə yanaş;
2. Onun vərəqlərini qatlama və cırma;
3. Yemək yeyərkən qida qırıntılarını kitabın üzərinə tökmə;
4. Köhnəlmiş, cırılmış kitablarını təmir et;
5. Kitabı yazma;
6. Kitabxanadan aldığın kitabı vaxtında geri qaytar.

Kitabxana işçiləri azyaşlı oxucular üçün xüsusi dərnək təşkil edərək onları korlanmış və köhnəlmiş kitabların təmirinə cəlb edə bilərlər. F.Köçərli adına Respublika Uşaq Kitabxanasında bir neçə il bundan öncə kitabların bərpası ilə əlaqədar olaraq kurs təşkil edilmiş və bu kursa kiçik oxucular cəlb olunmuşdu. Kursda oxucular kitabları bərpa etməklə yanaşı, həm də onlara qayğı ilə yanaşmağı öyrənmişlər. Hətta kitabı sevərək təmir edən oxuculara gördükləri işin müqabilində zəhmət haqqı təqdim olunmuşdu. Kitabxanamızın həyata keçirdiyi bu tədbir xüsusilə təqdirəlayiqdir. Çünki kitabxanalarda keçirilən bu kimi tədbirlər oxuculara kitaba sevgiylə yanaşmağı öyrətməklə bərabər, əməyə sevgi də aşılayır. Bundan əlavə slaydlar və ya plakatlar vasitəsilə oxucuları maarifləndirmək mümkündür. Bilirik ki, cırılmış, üz qabığı dağılmış kitabların bəpasında düzgün yapışqanın seçilməsi olduqca mühümdür. Bu məqsədlə, aşağıdakı plakatı sizə təqdim edirik.

**Sənin kitabın köhnəlib və cırılıb?**
**Sən, onu özün bərpa edə bilərsən!**






Kitabların bərpası zamanı tərkibində turşu olmayan yapışqan seçmək lazımdır. Belə ki, tərkibində turşu olan yapışqanlardan istifadə etdikdə kağız yeyilərək karroziyaya uğrayır. Bunun üçün ən əlverişli yapışqan PVA-dır. PVA maye halındadır. Çox qatı oluqda bu yapışqana su qatmaqla onu durultmaq olar. Bunun üçün vərəqləri səliqə ilə bir yerə yığmaq, cild ilə forzası yaxınlaşdıraraq yapışdırmaq lazımdır. Yapışqandan istifadə edərkən fırçanın ucunu azca yapışqana batırın. Unutmayın ki, həddən artıq yapışqanın istifadə olunması da kitaba ziyan vurar.

**Kitabı oxucuya sevdirmək məqsədilə kitabxananın girişində tanınmış şəxsiyyətlərin kitab haqqında söylədikləri sitatlardan şüarlar nümayiş etdirmək olar:**

**Görkəmli şəxsiyyətlərin kitab haqqında söylədikləri:**

Azərbaycanda kitab çapının tarixi böyükdür.

**Heydər Əliyev**

Dünyada nə qədər kitab var belə,
Çalışıb əlləşib gətirdim ələ,
Oxudum, oxudum, sonra da vardım,
Hər gizli xəznədən bir dürr çıxardım.

**Nizami Gəncəvi**

Elm ilə, ədəblə tapılır şərəf,
Mirvari olmasa nə lazım sədəf?

**Məhəmməd Füzuli**

Hər sözü bir ulduz, bir şəffaf almaz,
Mənalar dünyası qaranlıq deyil,
Bu böyük kitablar yaranır az-az,
Çünki ömürlükdür, bir anlıq deyil

**Səməd Vurğun**

Yaxşı kitab çox qiymətli xəzinədir.

**Həsən bəy Zərdabi**

Kitabsız yaşamaq; kor, kar, dilsiz yaşamaqdır.

**Seneka**

Bu günün gerçək universiteti, bir kitabxanadır.

**Çarli**

Kitab, tək ölümsüzlükdür.

**Rufus Şoeyt**

Əxlaqa uyğun, ya da zidd kitab deyə bir şey yoxdur. Kitablar ya yaxşı yazılmışdır, ya da pis. Hamısı bu qədər!

**Oskar Uayld**

Onu da qeyd edək ki, ulu öndər Heydər Əliyev Azərbaycan kitabına daima yüksək qiymət vermişdir. Heydər Əliyevin M.F.Axundov adına Milli Kitabxanada "Vətənə, dövlətə, xalqa sədaqət andı" miniatür kitabının təqdimat sərgisində kitabxana haqqında bu fikirləri söyləmişdir: "Kitabxana xalq, millət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir. Mən bu kitabxanaya dəfələrlə gəlmişəm. Amma bu gün kitabxananın astanasından keçərkən çox böyük hörmət və ehtiram hissi duyuram". Həmin çıxışında ümummilli liderimiz Azərbaycan kitabı haqqında belə demişdir: "Azərbaycanda kitab çapının tarixi böyükdür. Yaxın keçmişdə Azərbaycan Respublikası onun 400 illiyini qeyd etmişdir. Keçmiş dövrlərdə məzmununa və formasına görə müxtəlif, çox maraqlı nəfis kitablar buraxılmışdır. Bu nəşrlər dünyanın bir çox ölkələrində də Azərbaycanı təmsil edir, onun haqqında biliklər verir".

Ulu öndər Heydər Əliyevin kitab haqqında bu çıxışlarını rolik formasında kitabxananın girişində ekranda nümayiş

etdirmək olar. Uşaqlardan fərqli olaraq orta və böyük yaşlı məktəblərdə nəsihətlərin əhəmiyyəti azalır. Demokratik dövrdə kitabların sosial əhəmiyyəti dərk edilir. Çünki informasiyalaşdırılmış cəmiyyətin fəal üzvləri yeni informasiya tələbatı ilə çıxış edir. Kitabxanada hər bir oxucu kitabxanadan istifadə qaydalarını bilməlidir. O, formulyarda kitabxana qaydaları ilə tanış olmalı, onun yerinə yetirilməsi haqqında imza edilməlidir. Kitabxana yaşlı oxucuların tərbiyələndirilməsində kitabxana fondlarının mənəvi hüquqi nöqteyi nəzərdən səliqəli yanaşmağı məsləhət görür. Lazımi hallarda onun eqoist marağı ilə cəmiyyətin marağı arasındakı ziddiyətləri aradan qaldırmağa kömək edir. Kitabxanadan istifadə qaydalarına görə oxucuya 2 dəfə xəbərdarlıq edilir. Kitabın vaxtında qaytarılmamasının səbəbindən asılı olaraq kitabxanada ciddi tədbirlər tətbiq edilə bilər. Oxucuların tərbiyəsində müsbət nailiyyətlər o vaxt mümkündür ki, tərbiyə prosesi təkcə kitabxana daxilində deyil, o, ailə, uşaq bağçası, orta və ali məktəblər, istehsalat kollektivləri ilə birlikdə aparılsın. Kitabın korlanmasının qarşısını almaq üçün oxucu və kitabxanaçı onunla mədəni rəftar etmək qaydalarına yiyələnməlidirlər. Kitabxanaçı istifadə edilən kitabı oxucudan qəbul edərkən kitabın səhifələrini, qrafiklərini, rəsmlərini, şəkillərini yoxlamalıdır. Oxucu korladığı kitabı yenisi ilə və ya beş dəfə qiymətli kitabla əvəz etməyə borcludur. Oxumaq üçün alınan kitabların vaxtında qaytarılması ilə mübarizə məqsədilə borclu oxuculara şifahi və ya yazılı xəbərdarlıq edilir. Kitabxanadan istifadə qaydalarına görə oxucuya iki dəfə xəbərdarlıq edilə bilər. Əgər bunlar lazımı təsir göstərmirsə, onda kitab notarius kontoru vasitəsilə əldə edilir. Kitabların oğurlanması

səbəbləri bir tərəfdən ayrı-ayrı oxucuların yüksək şüurlu olması ilə, digər tərəfdən bir sıra kitabxanaların işindəki nöqsanlarla müəyyənləşir. Bu nöqsanlar uçot səhvləri ilə, kitabxana fondunun düzgün yerləşdirilməməsi ilə, kitabların mühafizəsinə zəif nəzarətlə əlaqədardır. Hər bir kitabxana işində belə nöqsanlara yol verməməyə çalışmalıdır. F.Köçərli adına Respublika Uşaq Kitabxanasında oxucular tərəfindən kitabların vaxtında kitabxanaya qaytarılmasına və onlardan səliqəli istifadə olunmasına xüsusi diqqət yetirilir. Kitabın təhvil verilmə vaxtı təyin olunmuş vaxtdan keçdikdə kitabxanaçılar tərəfindən oxucu xəbərdar olunur. Eyni zamanda təhvil olunan kitab yoxlanaraq ona fiziki cəhətdən ziyanın dəyib-dəyməməsi müəyyən olunur. Ümüdvarıq ki, F.Köçərli adına Respublika Uşaq Kitabxanası bu vəzifələrin öhdəsindən layiqincə gələcək və bundan sonra da kitabxana ictimaiyyəti üçün əhəmiyyətli vəsaitlərin nəşr edilməsində, regionun uşaq kitabxanaları üçün metodik təminat sisteminin güclənməsində və kitabxanaçı kadrların səriştəsinin artırılmasında bütün imkanlarından müvəffəqiyyətlə istifadə edəcəkdir. Kitabxanada daim həyat qaynayır, uşaqların dünyagörüşlərinin formalaşması, mütaliəyə cəlb olunması ilə bağlı daha maraqlı işlər keçirilməsi üçün elmi tədqiqat işləri aparılır, sorğular keçirilir. Elmi-metodika şöbəsi olaraq daim axtarışlar aparır, kitabxana biblioqrafiya işinin daha səmərəli variantını günün tələbləri baxımından həyata keçirmək sahəsində öz işimizi qururuq. Kitabxanamız öz iş prosesini dünya kitabxanları səviyyəsinə çatdırmağa səy göstərir. Bundan sonra da informasiya təminatı istiqamətində fəaliyyətinin səmərəsinin artırılması, inkişafı və təkmilləşdirilməsi məqsədilə günün tələbləri səviyyəsində

mütərəqqi iş üsullarından istifadə edəcək. Yəni kompüter texnologiyalarının tətbiqi, ənənəvi informasiya mənbələrin elektron daşıyıcılara köçürülməsi, CD-ROM texnologiyaların tətbiqi, informasiyanın ötürülməsində yeni metodlardan istifadəsi, qrafık şəkildə informasiyanın təqdim etmək imkanları və bir sıra başqa işlərin hayata keçirilməsi üçün səy göstərərək uğurlar əldə edəcəkdir. Kitabxana mütəxəssisləri belə düşünürlər ki, kitabxanaların metodik təminatı, metodiki köməklik, metodiki yardım olduqca vacibdir. Hazırda kitabxana yeniliklərinin həddindən çox artması və onların kitabxana rəhbərlərinin qarşısında çox mühüm bir vəzifə kimi durması ciddi və yeni tədbirlərin həyata keçirilməsini tələb edir. Bununla bağlı müxtəlif ölkələrin aparıcı kitabxanalarında məqsədli konsepsiyaların işlənməsi və perspektivli metodiki tədbirlərin həyata keçirilməsi gündəlikdə duran əsas məsələlərdəndir. F. Köçərli adına Respublika Uşaq Kitabxanası bundan sonra da informasiya təminatı istiqamətində fəaliyyətinin səmərəsinin artırılması, inkişafı və təkmilləşdirilməsi məqsədilə günün tələbləri səviyyəsində mütərəqqi iş üsullarından istifadə edəcəkdir.

## Ədəbiyyat siyahısı

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu //Azərbaycan, 1998, 19 iyun, S. 2-4.

Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik, I hissə, Bakı: Bakı Universiteti Nəşriyyatı, 2001.-400 s.

Xələfov A.A. Kitabxanaşünaslığa giriş, Dərslik, II hissə, Bakı: Bakı Universiteti Nəşriyyatı, 2003, 314 s.

Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik, II hissə, Bakı: Bakı Universiteti Nəşriyyatı, 2007.-552 s.

Столяров Ю.Н. Библиотечный фонд: Учебник. – М.: Книжная палата, 1991.-271 с.

Карташов Н.С. Взаимосвязъ формирования и исполъзования библиотечных фондов // Сов. библиотековедение. – 1992.-№5. –С.61-67.

Организация работы централизованной библиотечный системы:Инструкции и учет. формы.- Москва:Книга,1985.- 192с.

**<u>İnternetdə:</u>**

www.google.az
www.wikipedia.org
www.clb.az

# Uşaq kitabxanalarında fondların öyrənilməsi, mühafizəsi, istifadə edilməsi

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 27
Çapa imzalanmışdır: 09.06.2020
Tirajı:100
Pulsuz